# CAR Universitetinin professoru: COP29 ətraf mühiti çirkləndirənlərə qarşı qətiyyətli mövqe nümayiş etdirə bilər

İki həftədən sonra Bakıda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) işə başlayacaq. İllik iqlim forumu dövlətlərin və korporasiyaların istixana qazı emissiyalarına görə məsuliyyət daşımasına diqqət yetirəcək. Beynəlxalq ictimaiyyət əsas istixana qazı emissiyalarına səbəb olanları məsuliyyətə cəlb edən möhkəm mexanizmlər yaratmalıdır. Bu, yüksək emissiya edən ölkələrin və korporasiyaların məcburi maliyyə töhfələrini əhatə edir. Onlar həssas icmalarda iqlim dəyişikliyinin azaldılması və uyğunlaşma səylərini maliyyələşdirəcəklər.

AZƏRTAC xəbər verir ki, bu barədə Cənubi Afrika Universitetinin ekologiya elmləri professoru Llevelin Leonardın Britaniyanın "The Conversation" layihəsinin platformasında dərc olunmuş "Çirkləndiricilər cərimə ödəməlidirlər: COP29 bunu necə reallaşdıra bilər?" sərlövhəli analitik məqaləsində deyilir.

Məqalə müəllifinin sözlərinə görə, "çirkləndirən ödəyir" prinsipi uzun illərdir ki, iqlim müzakirələrinin əsas hissəsi olub. İnsan sağlamlığına və ətraf mühitə dəyən zərərin qarşısını almaq üçün baiskarlar atmosferin çirklənməsinin idarə edilməsi xərclərini öz üzərinə götürməlidir.

Professor əlavə edib: "Bu prinsip nəzəri cəhətdən geniş şəkildə qəbul edilsə də, ardıcıl olaraq praktikada tətbiq olunmayıb. Ən böyük çirkləndiricilərin bir çoxu vurduqları zərərə görə çox az və ya heç bir maliyyə nəticəsi olmadan fəaliyyətlərini davam etdirirlər. Bir çox dövlətlər, xüsusən də inkişaf etməkdə olan ölkələr qlobal emissiyalara ən az cavabdeh olmasına baxmayaraq, iqlim dəyişikliyinə uyğunlaşmaq və onun təsirini azaltmaq xərclərini öz üzərinə götürməli olublar.

COP29 qlobal istiləşməni məhdudlaşdırmaq üçün lazım olan radikal emissiyaların azaldılmasına nail olmaq məqsədilə daha çox siyasi iradə və öhdəlik nümayiş etdirməli olacaq.

Müəllif daha sonra qeyd edib: "2050-ci ilədək bütün istixana qazları emissiyalarının dayandırılmaması Afrika qitəsinə hər il 50 milyard ABŞ dollarına başa gələ bilər. Bunun, həmçinin 2030-2050-ci illər arasında dünya üzrə hər il təxminən 250.000 ölümə səbəb olacağı gözlənilir. Afrika iqlim fəsadlarından çox əziyyət çəkəcək.

Cənubi Afrikada qazıntı yanacağının səbəb olduğu çirklənməni və onun icmalara təsirini tədqiq edən ekologiya elmləri professoru kimi inanıram ki, COP29 çirkləndiriciləri emissiyalara görə məsuliyyət daşıyan tədbirləri güclü şəkildə təşviq edə bilər".

Professor bildirir ki, atmosferi çirkləndirənlərə vergi qoyulması, onları keçmiş çirklənməyə görə də pul ödəməyə məcbur etmək və məhkəmələrin iqlimə dəymiş ziyana görə kompensasiya verməsi barədə hökm çıxarması COP29 iştirakçılarının razılaşmalı olduğu tədbirlərdən bəziləridir. O yazır: "COP29 korporasiyaları və ölkələri emissiyalarına görə məsuliyyətə cəlb etmək üçün başqa, bəlkə də sonuncu fürsəti təmsil edir. Bu, iqlim ədalətinə nail olmaq və temperatur artımını azaltmaq istiqamətində mühüm addımdır. COP29 emissiya hədəflərini yerinə yetirə bilməyən əsas çirkləndiricilər üçün məcburi cərimələr tətbiq etməlidir".

Qeyd edək ki, məqalə qazıntı yanacağına subsidiyalara son; iqlim maliyyəsi üçün məcburi hesabatlılıq mexanizmləri; mənbədə karbon qiymətləri və emissiyaların vergiyə cəlb edilməsi; iqlimə dəymiş ziyana görə hüquqi məsuliyyət; maliyyə şəffaflığı qaydaları; tarixi emissiyalara görə məsuliyyət yarımbaşlıqlara bölünür.

Müəllif yekunda yazır: "COP29-un uğuru hökumətlərin və korporasiyaların ədalət, bərabərlik və şəffaflıq prinsiplərini qəbul etmək üçün kollektiv iradəsindən asılı olacaq. Bu, iqlim dəyişikliyi ilə mübarizənin yükünün yalnız Afrika ölkələri kimi ən az məsuliyyət daşıyan ölkələrin çiyinlərinə düşməməsini təmin edir".

Məqalənin orijinal mətnini https://theconversation.com/polluters-must-pay-how-cop29-can-make-this-a-reality-240713 linki vasitəsilə oxuya bilərsiniz.

**AZƏRTAC**
**2024, 29 oktyabr**